*21 noyabr Yeni Azərbaycan Partiyasının yaranmasının 24-cü ildönümü günüdür*

# Tarixi zərurətdən və tarixi məqamda yaranmış partiya

***1987-ci ilin sonu, 1988-ci ilin əvvəllərində keçmiş SSRİ-nin hər yerində olduğu kimi Azərbaycanda da mərkəzdən-qaçma hərəkatı gücləndi. Hər yerdə xalq ayağa qalxaraq imperiya bağlarından xilas olmaq uğrunda mübarizəyə başladı. Azərbaycanda bu hadisələr digər respublikalardan fərqli şəkildə inkişaf edirdi. Belə ki, həmişə öz xəyanətkarlığı ilə «ad çıxarmış» qonşumuz ermənilər SSRİ rəhbərliyinin loyal münasibətindən isttifadə edərək Azərbaycana qarşı ərazi iddiaları irəli sürdülər. Bu iddialar tezliklə silahlı münaqişəyə, yüz minlərlə soydaşımızın öz ata-baba yurdlarından zorla qovulmasına gətirib çıxardı. Respublika rəhbərliyinin səriştəsizliyi də vəziyyəti daha çıxılmaz hala gətirirdi. Hakimiyyətdəkilər dəyişsə də vəziyyət dəyişmirdi.***

1992-ci ilin may ayında xalq hərəkatı dalğasında yaranmış Azərbaycan Xalq Cəbhəsi silah gücünə hakimiyyəti ələ keçirdi. Əslində həmin vaxt silahı tətbiq etmək üçün möhkəm və xalqın dəstəyinə malik olan hakimiyyət də mövcud deyildi.

Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətə gəlişi xalqın müəyyən qismində ümid yaratsa da cəmi bir neçə aya bu hakimiyyətə bəslənən ümidlər əriyib getdi. Ölkədə vəziyyət olduqca dramatik hal almışdı. Bir tərəfdən də iqtisadiyyatın məhv edilməsi, xarici əlaqələrin qırılması nəticəsində ölkədə aclıq başlanmışdı. Çörək mağazalarının önündəki uzun növbələr gündən-günə çoxalırdı. Ermənilər daha da azğınlaşır, hər gün daha çox ərazimizi işğal edirdilər. Bu işğallar çoxlu insan (əsasən dinc sakinlər) tələfatı ilə müşayiət olunurdu.

Belə bir vəziyyətdə xalqın yeganə ümid yeri o vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyev idi. Xalqın tanınmış, nüfuz sahibi olan nümayəndələri tez-tez Heydər Əliyevin yanına gedir, Azərbaycanı düşdüyü vəziyyətdən çıxarmaq üçün məsləhətləşmələr aparırdılar. Bu məsləhətləşmələrin nəticəsi olaraq 1992-ci ilin oktyabr ayında Azərbaycanın 91 nəfər ziyalısı, tanınmış nüfuzlu adamlar Heydər Əliyevə məktubla müraciət edərək vətənimizi düşdüyü fəlakətdən qurtarmaq üçün onun rəhbərliyi ilə bir siyasi partiyanın yaradılmasına razılıq verməsini xahiş etdilər. Bütün ömrünü xalqa həsr etmiş Heydər Əliyev bu müraciətə müsbət cavab verdi. 1992-ci il noyabrın 21-də Azərbaycanın paytaxtı Bakı şəhərindən, bütün bölgələrdən Naxçıvana gəlmiş 550 nəfərlik nümayəndənin iştirakı ilə yeni bir partiyanın təsis konfransı keçirildi. Ulu öndər Heydər Əliyevin təklifi ilə konfrans bu siyasi təşkilata Yeni Azərbaycan Partiyası adı verdi.Yeni Azərbaycan Partiyası parlament tipli partiya kimi fəaliyyətə başladı. Bütün təqiblərə və təzyiqlərə baxmayaraq Yeni Azərbaycan Partiyasının tezliklə ölkənin hər bir bölgəsində təşəbbüs qrupları yaradıldı. Konfranslar keçirildi. Yeni Azərbaycan Partiyası xalqın sönmüş ümidlərini yenidən alovlandırdı. Azərbaycan tarixinin sonrakı gedişi göstərdi ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən və tarixi məqamda yaranmış bir siyasi qüvvədir.

1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə Azərbaycanda hakimiyyətə gələrkən artıq onun köməyində qısa müddətdə tarixin sınağından çıxmış partiya—Yeni Azərbaycan Partiyası vardı. Bu partiya ulu öndər Heydər Əliyevin, ondan sonra onun layiqli davamçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanı işıqlı gələcəyə doğru inamla aparır.

**✍ Qüdrət SƏMƏDOV,**
**Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının şura üzvü.**

# Dövlət Bayrağı Günü münasibətilə tədbrlər keçirilmişdir

*Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində 9 noyabr Dövlət Bayrağı Günü münasibətilə «Bayrağımız varlığımızdır» mövzusunda «dəyirmi masa» təşkil olunmuşdur. Əvvəlcə tədbir iştirakçıları torpaqlarımız uğrunda canından keçən vətən oğullarının müqəddəs xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.*

*Sonra şəhidlərimizi əbədiləşdirən guşəyə baxış keçirilmişdir.*

*«Dəyirmi masa»da Dövlət bayrağımızın tarixi, onun qəbul edilməsi zərurətlərindən geniş söhbət açılmışdır. Viktorina qaydasında keçirilən tədbirə muzeyə gələn qonaqlar və məktəblilər də qatılmışlar.*

* * *

*Rayon mərkəzi xəstəxanasında 9 noyabr Dövlət Bayrağı Günü ilə əlaqədar tədbir keçirilmişdir. Mərkəzi xəstəxana baş həkiminin müavini Cavanşir Məlikov tədbiri açmış, Dövlət bayrağımızın yaranma tarixi barədə məruzə etmişdir. Mərkəzi xəstəxananın həkimləri Şirin Müştaqov, Orxan Məmmədov və tibb bacısı Gülnar Səfərəliyeva Dövlət Bayrağı Günü ilə əlaqədar çıxış etmişlər.*

* * *

*9 noyabr Dövlət Bayrağı Günü Mamaylı kənd tam orta məktəbində də qeyd edilmişdir. Bayram tədbirini giriş sözü ilə məktəbin direktoru Ramazan Ədilov açmışdır. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir. Ramazan Ədilov Dövlət bayrağımızın təsis edilməsi tarixi, 1990-cı ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən yenidən Dövlət Bayrağı kimi qaldırılmasından danışmış, bayrağımızı təşkil edən üç rəngin simvolik mənaları barədə məlumat vermişdir.*

*Şagirdlər bayrağa, Vətənə aid şeirlər söyləmişlər. Şagirdlərin hazırladıqları dövlət simvollarına həsr olunmuş rəsmlər, əl işləri nümayiş olunmuşdur. Əl işləri və rəsmləri fərqlənən şagirdlərə hədiyyələr verilmişdir.*

* * *

*Dövlət Bayrağı Günü münasibətilə Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsində tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə şöbənin müdiri Elçin Əliyev açmışdır. Şöbənin əməkdaşı Musa Məmmədov Dövlət bayrağının yaranması tarixi barədə məlumat vermişdir. İşçilərdən Orxan isgəndərli, Musavər Ağasıyev və başqaları Dövlət Bayrağı Günü ilə əlaqədar çıxış etmişlər.*

# “Ölkəmizi tanıyaq ” tur-aksiyasının növbəti qonaqları Qəbələdə





Noyabrın 12-15-də və 17-20-də respublikanın ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdləri üçün təşkil olunan “Ölkəmizi tanıyaq” devizi altında maarifləndirici tur-aksiyaların 6-cı mərhələsində 4 istiqamət üzrə 76 şəhər və rayondan ümumilikdə 3120 nəfərin iştirakı nəzərdə tutulmuşdur.

Layihənin əsas məqsədi gəncləri Azərbaycanın müxtəlif bölgələrinin tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri ilə yaxından tanış etmək, Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik illərində qazanılan nailiyyətlərin dərindən öyrənilməsinə nail olmaq, eyni zamanda, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə ölkəmizin hazırkı dinamik sosial-iqtisadi inkişafını, gündən-günə abadlaşan şəhər və rayonlarımızın müasir simasını göstərməkdir.




Ölkə gəncləri aksiya çərçivəsində noyabrın 12-də Qəbələyə gəlmişlər. Onlar rayonun qədim tarixi, mədəniyyət abidələri ilə tanış olmuş, bölgənin müasir simasını əks etdirən Heydər Əliyev Mərkəzinə, tarix-diyarşünaslıq muzeyinə, Heydər Əliyev adına Konqres Mərkəzinə, “Qəbələnd” İstirahət Mərkəzinə, “Beltmann” Piano Zavoduna, “Tufandağ” Xizəkçilik Kompleksinə, Qəbələ Konserv Zavoduna, Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, Nohur gölünə, Vəndam şəlaləsinə, Yengicə kəndindəki Zooparka və Nic qəsəbəsindəki qədim Alban məbədinə ekskursiya etmişlər. Onlar eyni zamanda səfərlərindən xatirə olaraq Qəbələ şəhərində ağac əkmişlər. Bu gəzintilər ölkəmizin tarixini dərindən öyrənməklə yanaşı, gənclərimizə Heydər Əliyevin siyasi irsi, ulu öndərin rəhbərliyi ilə milli dövlət quruculuğu sahəsində əldə olunmuş misilsiz nailiyyətlər, eləcə də ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi dinamik sosial-iqtisadi inkişaf və böyük quruculuq işləri ilə Qəbələ rayonunun nümunəsində tanış olmaq imkanı yaradır.

***“Qəbələ”.***